**Asif Rəşad NİFTƏLİYEV**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
E-mail: asif-niftaliev@mail.ru

# REGİONLARDA MALİYYƏ-İNVESTİSİYA MEXANİZMLƏRİNİN METODOLOJİ ÜSLUBLARI

**Xülasə**

Regionlarda maliyyə-investisiya mexanizmlərinin metodoloji uslublarının tədqiqindən ibarətdir. Regional inkişaf problemləri öyrənilmiş və ümumiləşdirilmişdir. Regionlarda iqtisadi fəallığın gücləndirilməsində maliyyə-investisiya mexanizmlərinin səmərəli təşkil edilməsinin vacibliyi əsaslandırılmışdır. Tətbiq edilən maliyyə-investisiya mexanizmlərinin gücləndirilməsinə zərurətin olduğu qeyd edilmişdir. Ölkənin regionlarında maliyyə-investisiya mexanizmlərinin metodoloji üslublarının təkmilləşdirilməsi üzrə təkliflər verilmişdir. Tədqiqatın metodu sırasında əsasən analiz, sintez, müqayisə və statistika metodları yer almışdır. Əlavə olaraq regionlarda maliyyə-investisiya mexanizmlərinin metodoloji problemləri üzrə araşdırmaları olan müəlliflərin əsərlərinə istinad edilmişdir. Tədqiqatın nəticələri – ümumən regionlarda maliyyə-investisiya mexanizmlərinin metodoloji üslublarının təkmilləşdirilməsi tədbirlərində istifadə edilə bilər.

**Açar sözlər:** region, regional iqtisadiyyat, maliyyə, investisiya, maliyyə-investisiya mexanizmləri, maliyyə-investisiya mexanizmlərinin metodoloji uslubları.

**UOT:** 338.47:656.02
**JEL:** E22; Q14; P33
**DOI:** https://doi.org/10.54414/WGCU1261

## Giriş

Regionların sosial-iqtisadi inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir, çünki bütövlükdə ölkənin inkişafı ondan asılıdır. Regional səviyyədə sosial-iqtisadi inkişaf istiqamətləri və onun alətləri formalaşdırılarkən regionun inkişafının xüsusiyyətləri, habelə milli iqtisadi siyasət nəzərə alınmalıdır. Region - müxtəlif maraqların cəmləşdiyi yerdir və bir sistem olaraq öz təbiətinə görə ziddiyyətlidir. İstənilən cəmiyyət öz resurslarından mümkün qədər səmərəli istifadə etməyə çalışır, çünki bu, iqtisadiyyatın işləməsi üçün optimal parametrlərin əldə edilməsinə və dövlətin qarşısında duran prioritet vəzifələrin həllinə önəmli dərəcədə təsir göstərir.

Ölkədə iqtisadi dəyişikliklərin yeni mərhələsinin prioritet istiqaməti regionların iqtisadiyyatının modernləşdirilməsidir. Əvvəllər regional hakimiyyət orqanlarının əsas vəzifəsi investisiyaların cəlb edilməsi məqsədilə sahibkarlıq fəaliyyətinin inkişafına şərait yaratmaq idisə, artıq bu prosesə regionun dayanıqlı inkişafı üçün şəraitin yaradılmasına, innovasiya fəaliyyətinin intensivləşdirilməsinə, region iqtisadiyyatının strukturunun təkmilləşdirilməsinə, konkret regionun istehsal etdiyi məhsul və xidmətlərin rəqabət qabiliyyətinin artırılmasına diqqətin yönəldilməsi problemləri ön plana çıxır.

Geniş mənada inkişaf sosial-iqtisadi sistemin keyfiyyət və kəmiyyət aspektlərində təsahür edir. Keyfiyyət baxımından inkişaf sosial-iqtisadi sistemin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, məsələn, həyat səviyyəsinin, təhsilin səviyyəsinin yüksəldilməsi, insan potensialının artırılması, infrastrukturun inkişafı, yeni sistemlərə inteqrasiya, texnoloji innovasiyaların təşviqi deməkdir. Kəmiyyət inkişafı ÜDM-in artırılması, istehsalın genişləndirilməsi, yeni iş yerlərinin yaradılması, istehlak tələbinin artırılması, əmək məhsuldarlığının yüksəldilməsi, yəni ümumilikdə iqtisadi fəallığın artırılmasını nəzərdə tutur. Beləliklə,

nəzərdən keçirilən mütərəqqi və dinamik təkamül prosesində dəyişikliklər sistematik şəkildə baş verir və regional bərabərsizliklərin aradan qaldırılması, sosial-iqtisadi strukturun davamlı inkişafının davamlılığının təmin edilməsi və s. kimi konkret məqsədlərə nail olmağa yönəldilir. Bunun əsasında regionun inkişafının ümumi və genişlənmiş trayektoriyasını formalaşdıran, dəstəkləyən və təsir edən əsas mexanizmlərin, metodların, hərəkətverici qüvvələrin və qarşılıqlı asılılıqların öyrənilməsi hərtərəfli araşdırma tələb edir [1, s.91].

**Ölkə regionlarında maliyyə-investisiya mexanizmlərinin metodoloji əsaslarının tədqiqi.** Regionların inkişafının ölkə iqtisadiyyatının gücləndirilməsinin prioritet istiqaməti olduğunu nəzərə alsaq, onların mövcud potensialının müəyyənləşdirilməsi, səmərəli istifadəsi yolu ilə iqtisadi səmərənin maksimuma çatdırılması və ərazinin subyektlərinin sosial-iqtisadi tələbatının ödənilməsi zəruridir. Regionların sosial-iqtisadi inkişafının əsas strateji prioritet istiqamətləri aşağıdakılardan ibarət olmalıdır:

- regional hakimiyyət orqanlarının idarə edilməsinin səmərəliliyinin artırılması;
- regionun maliyyə-investisiya mexanizminin səmərəli təşkili;
- regionda investisiya və innovasiya fəallığının artırılması;
- regionun təbii sərvətlərindən istifadənin səmərəliliyinin artırılması;
- regionda insan potensialının inkişafı və səmərəli istifadəsi.

Göründüyü kimi, iqtisadiyyatın idarə edilməsinin müasir mərhələsində əsas problemlərindən biri regionların inkişafıdır. Regionun inkişafının və onun sabitləşməsinin təmin edilməsi müəyyən metodoloji məsələlərin həllini zəruri edir. Müasir şəraitdə regional inkişafın metodoloji əsaslarına aşağıdakılar daxil edilməlidir:

- ✓ regional inkişafın idarə edilməsinin məzmununu müəyyən edən məqsədlər sisteminin formalaşdırılması;
- ✓ regionun kadr potensialının aktivləşdirilməsi;
- ✓ regionun inkişafının səmərəliliyinin önəmli dərəcədə artırılması məqsədilə şərait və ilkin şərtlərin yaradılması;
- ✓ regional inkişafın idarə edilməsi prinsiplərinin müəyyənləşdirilməsi və dövlət idarəetmə strukturları ilə qarşılıqlı əlaqənin inkişaf etdirilməsi;
- ✓ qarşıya qoyulan məqsədlərə nail olmaq yollarının əsaslandırılması, o cümlədən, regionlarda mövcud istehsal potensialının köklü şəkildə yenidən qurulması və modernləşdirilməsi, sosial-iqtisadi sabitliyin öz mənbələrinin və resurslarının genişləndirilməsi və inkişafı;
- ✓ regional iqtisadiyyatın inkişafında qeyri-müəyyənlik və qeyri-sabitlik amillərinin qarşısının alınması və lokallaşdırılması mexanizmlərinin formalaşdırılması (mənfi təsirlər nəticəsində mümkün böhran vəziyyətlərinin, regional iqtisadi sistemin funksiyalarında kəskin dəyişikliklərin qarşısının vaxtında alınması və s.).

Ümumiyyətlə, regional inkişaf üçün metodoloji əsasların hazırlanması regionun gələcəyi üçün strategiyanın reallaşdırılması deməkdir.

Dövlət tərəfindən regionların inkişafı məqsədilə uzunmüddətli strategiya hazırlayarkən, həmin strategiyanın verə biləcək töhfəsini hərtərəfli nəzərə almaqla uzunmüddətli məqsədlərini reallaşdıra bilər. Belə bir inkişaf strategiyasının mövcudluğu regional idarəetmə orqanlarına müxtəlif mənbələrdən subsidiyalaşdırma problemini həll etmək və həmin vəsaitlərin məqsədyönlü şəkildə xərclənməsini inandırıcı şəkildə əsaslandırmaq imkanı yaradır. İnkişaf strategiyası həmçinin, dövlət büdcəsindən ayrı-ayrı tədbirlərin və obyektlərin maliyyələşdirilməsi və ya investisiyalaşdırılması məqsədilə regional hakimiyyət orqanlarının müraciətləri üçün əsas təşkil edir. Yalnız uzunmüddətli inkişaf strategiyası regionun idarə olunmasının bütün inzibati, hüquqi və iqtisadi üsullarının əlaqələndirilmiş formada və səmərəli şəkildə tətbiqinə imkan verir [2, s. 45].

Regionun inkişaf strategiyasının reallaşdırılması üçün müvafiq metodlardan istifadə etmək böyük önəm daşıyır ki, həmin metodlara daxildir:

1. Maliyyə-investisiya mexanizmləri.
2. İnzibati və təşkilati mexanizmlər.
3. Regionda tənzimləmə münasibətlərinin formalaşması.

4. Ən səmərəli regional layihələrdə dövlətin iştirakı.

5. Ərazilərin sosial-iqtisadi inkişafının məqsədli proqramları.

6. Yüksək texnologiyalı və bilik tutumlu sənayelərin inkişafına dəstək.

7. Xarici ticarət fəaliyyətinin intensivləşdirilməsi.

Regionun inkişafı üçün istiqamətlər və alətlər hazırlanarkən idarəetmə məsələlərinin araşdırılması vacibdir. Müasir şəraitdə regionların inkişafı idarəetmənin və inzibati-hüquqi tənzimləmənin önəmli strateji tərkib hissəsi olmaqla yanaşı, maliyyə-investisiya mexanizmi ilə sıx bağlıdır. Maliyyə-investisiya mexanizmi dövlət tərəfindən müəyyənləşdirilmiş maliyyə-investisiya münasibətlərinin təşkili forma və üsulları sistemidir. Maliyyə-investisiya mexanizmi regionun sosial-iqtisadi inkişafına maliyyə-investisiya vasitələrinin təsiri ilə iqtisadi maraqların reallaşdırılması üsullarının məcmusudur.

Maliyyə-investisiya mexanizmi maliyyə mexanizminin önəmli tərkib hissələrindən biri olmasına baxmayaraq, onun maliyyə və investisiya mexanizmlərinin cəmi kimi başa düşülməsi məqsədəuyğun hesab edilmir, çünki investisiya mexanizminin real investisiyaları təmin edən elementi onun tərkib hissəsi deyildir. Maliyyə-investisiya mexanizminin formalaşması müxtəlif mənbələrdən maliyyə resurslarının formalaşması yolu ilə baş verir [3, s.79-80].

Maliyyə-investisiya mexanizmi funksional və təşkilati olaraq reproduktiv sistemdən asılıdır. İqtisadi sistemin inkişafında müsbət dinamikanı təmin edən, həmin mexanizmdir. Bu mexanizm geniş təkrar istehsal proseslərinin inkişafını, o cümlədən müvafiq prinsiplərə əsaslanan maliyyə-investisiya fəaliyyətinin reallaşdırılmasının məqsəd, forma və üsullarını elementlər kimi nəzərə alan maliyy-investisiya münasibətlərinin həyata keçirilməsi üsulu kimi müəyyənləşdirilə bilər [4, s.6].

Maliyyə-investisiya mexanizminin əsas məqsədi təkrar istehsal sistemində iqtisadi artımın təmin edilməsidir. Maliyyə-investisiya mexanizmi təsərrüfat subyektlərinin maliyyə-investisiya fəaliyyəti və onlar arasında iqtisadi əlaqələr vasitəsilə reallaşdırılan maliyyə-investisiya proseslərinin təşkili sistemi kimi daxili prosesləri əlaqələndirən və həmin prosesləri tənzimləyən sistem kimi çıxış etmək iqtidarındadır.

Müxtəlif ədəbi mənbələrdə maliyyə-investisiya mexanizmi sahəsində aparılan təhlillər göstərir ki, bu sahədə tətbiq olunan forma və metodların regional inkişafının səmərəliliyinə nail olmaq üçün onların inkişaf xüsusiyyətlərini nəzərə almaqla müxtəlif yanaşmaların inteqrasiyası tələb olunur. İndiki mərhələdə bu istiqamət ən aktualdır, çünki bu şəraitdə maliyyə-investisiya resursları və onların idarə edilməsi prioritet məsələyə çevrilir. Regional inkişaf sosial, ekoloji və iqtisadi sabitliyə kömək edəcək səmərəli iqtisadi bazanın yaradılmasını tələb edir. Regionların inkişafı üçün maliyyə-investisiya mexanizminin səmərəli inkişafı və istifadəsi onun maliyyələşdirmə və investisiyalaşdırma imkanlarının keyfiyyətcə qiymətləndirilməsini, bu sahədə imkanlarına təhlükələrin və ərazinin maliyyələşdirmə və investisiyalaşdırma səviyyələrini məhdudlaşdıran amillərin müəyyənləşdirilməsini tələb edir [5, s.32].

Differensiallaşdırılmış yanaşma əsasında maliyyə-investisiya mexanizminin tətbiqi səviyyəsinə görə regionlar beş qrup ayrılmışdır: aşağı səviyyəli, orta səviyyədən aşağı olan, orta səviyyəli, orta səviyyədən yuxarı olan və tədqiq etdiyimiz mexanizmin ən yüksək səviyyədə təşkil olunğu regionlar.

Maliyyə-investisiya mexanizminin komponentləri bunlardır: maliyyə-investisiya dəstəyi; maliyyə-investisiya tənzimlənməsi; bu təsirə çıxış imkanı verən maliyyə-investisiya göstəriciləri və maliyyə-investisiya alətləri sistemi.

Regionun maliyyə-investisiya mexanizminin komponentlərini nəzərdən keçirək. Maliyyə-investisiya dəstəyi təsərrüfat subyektinin maliyyə və investisiya siyasətlərinin qarşıya qoyulmuş vəzifələrini həll etmək məqsədilə müəyyən miqdarda maliyyə vəsaitlərinin və investisiya resurslarının ayrılmasından ibarətdir.

**Müasir şəraitdə regionlarda maliyyə-investisiya mexanizmlərinin metodoloji uslublarının təkmilləşdirilməsi perspektivləri.** Dövlət məqsədli proqramların və regional inkişaf proqramlarının məqsəd və vəzifələrinin reallaşdırılması müəyyən bir regiona dövlət dəstəyinin təmin edilməsi çərçivəsində və

dövlətin regional siyasətinin struktur komponenti kimi dövlətin maliyyə-investisiya siyasətinə uyğun reallaşdırılmalıdır. Regional maliyyə-investisiya siyasəti dedikdə, bir qayda olaraq, vahid regionun ərazisində həyata keçirilən və regional investisiya layihələrinin maliyyələşdirilməsi yolu ilə reallaşdırılmasından maksimum sosial-iqtisadi səmərə əldə etməyə yönəlmiş tədbirlər kompleksi başa düşülür [6, s.68].

Bacarıqlı maliyyə-investisiya siyasəti regionun ümumi iqtisadi vəziyyətini, iqtisadi artımı və məşğulluğu müəyyən edir. Buna görə də ölkədə səmərəli maliyyə-investisiya siyasətinin inkişafı problemi regional səviyyədə reallaşdırılan və maliyyə-investisiya resurslarının cəlb edilməsinə və onlardan daha səmərəli istifadənin istiqamətlərini müəyyənləşdirməyə kömək edən tədbirlər sistemidir. Hər bir regionda maliyyə-investisiya siyasəti regionun iqtisadi və sosial siyasəti, sənaye potensialının həcmi, coğrafi mövqeyi, təbii-iqlim şəraiti və s. ilə müəyyənləşdirilən öz fərdi xüsusiyyətlərinə malikdir.

Regional maliyyə siyasəti regional hakimiyyət və idarəetmə orqanları tərəfindən reallaşdırılan müstəqil, hərtərəfli siyasət növüdür. Bu tip siyasətin mürəkkəbliyi ondan ibarətdir ki, o, bir neçə nisbətən müstəqil, lakin bir-biri ilə əlaqəli siyasət növlərini ehtiva edir. Regional maliyyə siyasətini formalaşdıran siyasət növlərinə investisiya, vergi, büdcə, qiymət, habelə dövlət əmlakının idarə edilməsi siyasətləri daxildir [7, s.26]. Maliyyə siyasətinin məqsədinin müxtəlif təriflərinə yanaşmaların ümumiləşdirilməsi və sistemləşdirilməsi regional maliyyə siyasətinin əsas məqsədini - regionun inkişafının davamlılığının təmin edilməsini formalaşdırmağa imkan vermişdir. Regional maliyyə siyasəti əhalinin yaşayışının yaxşılaşdırılmasına diqqətin artırılmasını nəzərdə tuttan regionun ümumi siyasətinin məqsəd və vəzifələrinə tabe etdirilməlidir ki, bu da, regional çoxsəviyyəli sistemin sosial-iqtisadi inkişafı meyarlarının müəyyənləşdirilməsini tələb edir. Belə bir siyasət regionun inkişafının davamlılığının təmin edilməsinə yönəlib və bu da həmin siyasətin formalaşdırılması meyarlarını müəyyənləşdirir.

Regionun investisiya siyasəti ərazinin hakimiyyət orqanları və rəhbərliyi tərəfindən regional sosial-iqtisadi inkişafın ümumi strategiyası çərçivəsində regionda investisiya fəaliyyətinin və investisiya proseslərinin strukturu, formaları, metodları, inkişaf tempi və istiqamətləri ilə bağlı sistematik olaraq qəbul edilən qərarların məcmusudur. İstənilən regionda investisiya siyasətinin özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır ki, bunlar regionda aparılan iqtisadi və sosial siyasət, mövcud istehsal potensialının həcmi, coğrafi yerləşmə, təbii və iqlim şəraiti, xarici investisiyalar üçün regionun cəlbediciliyi və s. kimi amillərlə müəyyənləşdirilir.

İnvestisiya cəlbediciliyinin təmin edilməsinin hüquqi üsulları xüsusi rol oynayır. Onların əsas vəzifəsi investorların bərabər hüquq və mənafelərinin qorunmasına təminat verməkdir. Prioritet sahələrin müəyyənləşdirilməsi regionun investisiya cəlbediciliyinin artırılmasının əsas mərhələlərindən biridir. Ölkə subyektlərinin reallaşdırdığı siyasət bazarın əsas tələblərinə cavab verməli, habelə iqtisadiyyatın real sektorunun inkişafına yönəldilməlidir. Bu problemi həll etmək üçün bir sıra vasitələrdən istifadə etmək lazımdır ki, bunlar arasında məqsədli proqramlar, dövlət investisiyaları, qiymətli kağızlar bazarının inkişafı var. Regionun investisiya cəlbediciliyinin artırılması təkcə dövlət səviyyəsində deyil, habelə bələdiyyə səviyyəsində də investisiya fəaliyyəti reallaşdırdıqda mümkündür.

Regionların təkrar istehsal sistemində investisiyanın ən önəmli rolu onu iqtisadi mexanizmin strukturunda əsas maliyyə-investisiya mexanizmi kimi müəyyənləşdirməyə imkan verir ki, bu zaman onun əsas funksiyası iqtisadi artımı yaratmaqdır. Təbii ki, bütövlükdə o, təsərrüfat mexanizminin digər komponentlərindən (inzibati, əmək münasibətlərinin təşkili, maliyyə, qiymətqoyma, və s.) təcrid olunmuş şəkildə fəaliyyət göstərmir, əksinə, onlar bir-biri ilə o qədər sıx bağlıdır. Bütövlükdə maliyyə-investisiya mexanizminin fəaliyyəti maliyyə-investisiya münasibətləri iştirakçılarının iqtisadi maraqlarının reallaşdırılmasına yönəldilir.

Maliyyə-investisiya mexanizmi təsərrüfat subyektlərinin fəaliyyətinin müxtəlif aspektlərinə kifayət qədər önəmli təsir göstərir ki, bu təsirin əsas vektorunu maliyyə və investisiya

siyasətlərini hazırlayan və reallaşdıran dövlətlə ÜDM istehsalını təmin edən həmin subyektlər arasında münasibətlər təşkil edir. Buna əsaslanaraq regionların fəaliyyətinin idarə edilməsinin maliyyə-investisiya mexanizmi bütövlükdə dövlət səviyyəsində cəmiyyətin inkişafına əsas təsir alətləri və vasitələri ilə birlikdə nəzərdən keçirilməlidir. Regionun maliyyə-investisiya mexanizmi obyektiv iqtisadi qanunların tələblərinə uyğun qurulur. Onun əsasları dövlət tərəfindən müəyyən inkişaf mərhələsində üzləşdiyi problemləri həll etmək üçün qoyulur [8, s.12].

Ümumiyyətlə, regionların inkişafında maliyyə-investisiya mexanizminin formalaşması və istifadəsinin onların sosial-iqtisadi inkişafının məqsədlərinə nail olmaq üçün maliyyə-investisiya resurslarının formalaşması və istifadəsi üzrə elementlər və maliyyə-investisiya münasibətləri kompleksinin əlaqələndirilməsini nəzərdə tutan sistemli yanaşmaya əsaslanmalıdır. Regionların inkişafının maliyyə-investisiya mexanizminin qiymətləndirilməsi elmilik, hərtərəflilik, etibarlılıq, ardıcıllıq, obyektivlik, səmərəlilik və s. kimi prinsiplər əsasında aparılmalıdır. Bu qiymətləndirmə regionların maliyyələşdirmə və investisiyalaşdırma maraqlarına təhdidlərin vaxtında aydınlaşdırılması məqsədilə maliyyə-investisiya mexanizminin hər bir komponentini izləməyə və həmin mexanizmin gücləndirilməsinin strateji istiqamətlərini müəyyənləşdirməyə imkan verən göstəricilər sisteminin hesablanmasına əsaslanmalıdır.

## Nəticə

Beləliklə, regionların maliyyə-investisiya sistemi hərtərəfli təsir göstərəcək müxtəlif amillərin daimi təsiri altındadır və bununla bağlı olaraq, bir qrup məsələlərin nəzərə alınması vacibdir:

– Maliyyə-investisiya mexanizminin hazırkı səviyyəsi situasiya xarakteri daşıyır və sonrakı dövrlərdə dəyişə bilər. Odur ki, düzgün strategiyanın, maliyyə-investisiya mexanizminin inkişafının optimal modelinin seçilməsi və onun vaxtında və səmərəli reallaşdırılması olduqca vacibdir;
– Regionun maliyyə-investisiya mexanizmi regional iqtisadiyyata və sosial sferaya təsir göstərmək, regionların, bələdiyyələrin, təsərrüfat subyektlərinin vahid maliyyə və investisiya siyasətlərini reallaşdırmaq məqsədilə istifadə olunur;
– Həmin mexanizmin regional iqtisadiyyata və sosial sferaya təsiri, bir tərəfdən, onun strukturu və müxtəlif hissələrinin konkret problemlərin həllinə və real effekt əldə edilməsinə yönəldilməsi, digər tərəfdən isə maliyyə-investisiya resurslarının həcmi vasitəsilə reallaşdırılır və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Медведева Е.В. Социально-экономическое развитие региона: сущность, структура, факторы. Экономика и управление: проблемы, решения, 2023;7(10):90–95.
2. Əhmədova Ə.Ə. Regionların sosial-iqtisadi inkişafının prioritet istiqamətləri. AUDİT, 2023;3(41):47–54.
3. Шеина Е.Г., Кочиева Ж.Г., Туаев А.А., Гаврилов С.В. Эволюция финансово-инвестиционного механизма малых предприятий в условиях становления молодого государства: экономико-правовой аспект. Мир в эпоху глобализации экономики и правовой сферы: роль биотехнологий и цифровых технологий: сборник научных статей по итогам IX международной научно-практической конференции, Москва, 2021;79–81.
4. Бабкова Э.Г. Финансово – инвестиционный механизм воспроизводственного развития экономических систем. Управление экономическими системами: электронный научный журнал, 2014;12(72):1–23.
5. Ostovskaya A.A. The formation of the financial support mechanism of the territory spatial development. Современные технологии управления персоналом: Сборник трудов VII Международной научно-практической конференции, Симферополь, 2020; 120–124.
6. Арсланов Ш.Д. Социально-экономическое развитие региона: инвестиционный фактор. Региональные проблемы преобразования экономики, 2020;7(117):66–72.

7. Васильев Г.В. Финансовая политика, как инструмент обеспечения устойчивого развития региона. Юридическая мысль, 2021;4(124):24–39.

8. Агафоненко О.Ю. Финансовый механизм реализации структурной трансформации экономики региона. Сборник научных работ серии "Экономика", 2023;32:6–15.

**Asif Rashad NIFTALIYEV**
PhD student of Azerbaijan Cooperation University

## METHODOLOGICAL METHODS OF FINANCIAL AND INVESTMENT MECHANISMS IN THE REGIONS

**Summary**

The purpose of the study is to study the methodological methods of financial and investment mechanisms in the regions. Regional development problems are studied and generalized. The importance of effective organization of financial and investment mechanisms in strengthening economic activity in the regions is substantiated. It is noted that there is a need to strengthen the applied financial and investment mechanisms. Proposals are made to improve the methodological methods of financial and investment mechanisms in the regions of the country. The research method mainly includes analysis, synthesis, comparison and statistical methods. In addition, references are made to the works of authors who have conducted research on methodological problems of financial and investment mechanisms in the regions. The results of the study can be used in general in measures to improve the methodological methods of financial and investment mechanisms in the regions.

**Keywords*:*** region, regional economy, finance, investment, financial-investment mechanisms, methodological methods of financial-investment mechanisms.

**Асиф Рашад НИФТАЛИЕВ**
Докторант Азербайджанского Университета Кооперации

## МЕТОДОЛОГИЧЕСКИЕ МЕТОДЫ ИЗУЧЕНИЯ ФИНАНСОВЫХ И ИНВЕСТИЦИОННЫХ МЕХАНИЗМОВ В РЕГИОНАХ

**Резюме**

Цель исследования изучение методологических способ финансово-инвестиционных механизмов в регионах. Рассматриваются и обобщаются проблемы регионального развития. Обосновывается важность эффективной организации финансово-инвестиционных механизмов в укреплении экономической активности в регионах. Отмечается необходимость усиления применяемых финансово-инвестиционных механизмов. Предлагаются методы совершенствования методологических способ финансово-инвестиционных механизмов в регионах страны. Метод исследования включает в себя преимущественно аналитические, синтетические, сравнительные и статистические методы. Кроме того, приводятся ссылки на работы авторов, проводивших исследования методологических проблем финансово-инвестиционных механизмов в регионах. Результаты исследования могут быть использованы в целом при проведении мероприятий по совершенствованию методологических способ финансово-инвестиционных механизмов в регионах.

**Ключевые слова:** регион, региональная экономика, финансы, инвестиции, финансово-инвестиционные механизмы, методологические методы финансово-инвестиционных механизмов.

**Daxil olub:** 26.02.2026